# Çağdaş özbək şeirinin görkəmli nümayəndəsi Osman Əzim

**Xatirə Bəşirli**
Filologiya üzrə elmlər doktoru, Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. Azərbaycan.
E-mail: bashirli58@mail.ru
https://orcid.org/0000-0002-5599-6322

**Annotasiya.** Osman Əzim müasir Özbək ədəbiyyatının tanınmış şairlərindən, yazıçılarından və ssenaristlərindən biridir. Müasir özbək ədəbiyyatının bu böyük şairi təxminən 40 ilə yaxındır ki, ədəbi yaradıcılıqla məşğuldur. O, bir çox nəşriyyatlarda, redaksiyalarda çalışmış və milli teatrlarla əməkdaşlıq etmişdir. Lirik şeirləri ilə oxucularının qəlbində taxt quran Osman Əzim sevgi və fəlsəfi mövzularda bir çox əsərlər yazmışdır. Əsərləri bir çox xarici dillərə, o cümlədən Azərbaycan, rus, ingilis, fransız, türk, gürcü, alman, polyak, eston, tacik, qazax və s. tərcümə olunmuşdur.
**Açar sözlər:** müasir özbək ədəbiyyatı, lirik poeziya, fəlsəfi poeziya, vətənpərvərlik, milli dirçəliş

http://dx.doi.org/10.29228/edu.140
**Məqaləyə istinad:** Bəşirli X. (2020) *Çağdaş özbək şeirinin görkəmli nümayəndəsi Osman Əzim.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 251-256
**Məqalə tarixçəsi:** göndərilib – 02.06.2020; qəbul edilib – 08.06.2020

## Osman Azim the great poet of modern Uzbek poetry

**Khatira Bashirli**
Doctor of Philology, National Museum of Azerbaijan Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: bashirli58@mail.ru
https://orcid.org/0000-0002-5599-6322

**Abstract.** Osman Azim is one of the greatest poets, writers and screenwriters of modern Uzbek literature. This great poet of modern Uzbek literature has been engaged in literary creation for nearly 40 years. He worked for many publishing houses, editorial offices, and cooperated with national theatres. Osman Azim, who established the throne in the heart of his readers with lyric poems, has written many works on love and philosophical topics. His works have been translated into many foreign languages, including Azerbaijan, Russian, English, French, Turkish, Georgian, German, Polish, Estonian, Tajik, Kazakh and ets.
**Keywords:** modern Uzbek literature, lyric poetry, philosophical poetry, patriotism, national revival

http://dx.doi.org/10.29228/edu.140
**To cite this article:** Bashirli Kh. (2020) *Osman Azim the great poet of modern uzbek poetry*. «Comparative Literature Studies», Issue I, pp. 251-256
**Article history:** received – 02.06.2020; accepted – 08.06.2020

## Giriş / *Introduction*

70-ci illər özbək ədəbiyyatının ən önəmli isimlərindən biri olan Osman Əzim Məhəmməd Rəhman, Yoldaş Eşbek, Xurşid Dövran, Şövkət Rəhman, Tilək Cörə, Mətnəzər Əbdülhəkim, Sədrəddin Səlim, İkram Aatamurad kimi istedadlı şairlər nəslinə mənsubdur. Həmin dövrdə geniş vüsət alan milliləşmə, yeniləşmə hərəkatında fəal iştirak etmiş, özbək poeziyasının müqtədir şairlərindən birinə çevrilmişdir. Şair, yazıçı, dramaturq, publisist, kinossenarist Osman Əzim 1950-ci ildə Surxandərya vilayətinin Boysun rayonunda dünyaya gəlmişdir. İlk və orta təhsilini doğma yurdunda alan Osman Əzim daha sonra Daşkəndə gələrək, Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuş, 1972-ci ildə həmin universitetdən məzun olmuşdur. Universiteti bitirdikdən sonra Osman Əzim müxtəlif qəzet və jurnallarda jurnalist kimi fəaliyyət göstərmiş, daha sonra bir çox nəşriyyatda redaktor, baş redaktorun müavini vəzifələrində çalışmış, respublika radiosuna verilişlər hazırlamış, 1976-1989-cu illərdə dövlət radioverilişlərində redaktor, böyük redaktor və baş redaktor vəzifələrində işləmişdir.

## Əsas hissə / *Main Part*

Özbəkistan Yazıçılar İttifaqının üzvü olan Osman Əzim 1989-1990-cı illərdə Yazıçılar İttifaqının Daşkənd vilayət bölməsində məsul katib işləmişdir. Osman Əzim 1991-1994-cü illərdə bir müddət Özbəkistan Respublikası Prezidentinin aparatında şöbə müdiri, məsləhətçi və nəhayət, dövlət müşaviri vəzifələrində çalışmışdır. 2003-cü ildən bu günə qədər Özbək Milli Akademik Dram Teatrında ədəbi əməkdaş kimi işləməkdə və əsasən yaradıcılıqla məşğul olmaqdadır.

Osman Əzim ədəbi yaradıcılığa tələbəlik illərindən başlamış, ilk qələm təcrübələrini o dövrün qəzet və jurnallarında çap etdirmişdir. Hələ tələbəlik illərində yazdığı əsərləri ilə ədəbi-ictimaiyyətin rəğbətini qazanmış, o dövrün məşhur şairləri Erkin Vahidovun, Abdulla Aripovun, Rauf Pərfinin diqqətini çəkmiş, gənc şair və yazıçılar arasında özünəməxsus üslubu, dəsti-xətti ilə seçilmişdir.

Osman Əzimin ilk şeir kitabı jurnalist işlədiyi illərdə, "İnsanni tuşiniş" adı ilə 1979-cu ildə çap edilmişdir. Eyni ildə onun ikinci şeir kitabı "Halət" işıq üzü görmüşdür. Osman Əzim dövri mətbuatda yazdığı çoxsaylı publisistik məqalələri ilə bərabər, ədəbi yaradıcılıqla da məşğul olmuş, 80-90-cı illərdə məhsuldar işləyərək bir-birinin ardınca bir neçə şeir kitabı nəşr etdirmişdir. Məsələn, şairin 1980-ci ildə "Aqibət", "Güzgü", 1985-ci ildə "Surat" və "Dairə", 1987-ci ildə "İkkinçi aprel", 1989-cu ildə "Baxşıyanə", 1990-cı illərdə "Qaroyib əjdərha", "Oyanış azabı" (1991), "Fucca" (1994), "Uzun gecə" (1994), "Var imiş, yox imiş" (1995) kimi kitabları işıq üzü görmüşdür. Osman Əzim 80-90-cı illər Özbək ədəbiyyatında ən məhsuldar işləyən və kitabları bir-birinin ardınca çıxan tək-tük şairlərdən biridir. Şeirləri o qədər səmimiydi ki, onlara mahnılar qoşulmuş, gənclərin dilində əzbərə dönüşmüşdür:

*Şamda qurbaqalar*
*Aytdi aşulə.*
*Kunduz surnay çaldi*
*Çirillovuqlar.*
*Endi кunduzlarim*
*Yaz bilan tola,*

*Men xuşbaxt кezəmən*
*Bağda koylakçan,*
*Baxarmi? Ketqandir...*
*Etmaymən pərva.*
*Özimça koşiklar*
*Aytqanim-aytqan,*

*Endi tunlarimdan*
*Ketdi savuklar.*

*Umrim otqanini*
*Sezmay, xuda-ya [1, s.74].*

Yeni əsrin əvvəllərində də Osman Əzim yaradıcılıqla məşğul olmuş, “Payız” (2001) şeir kitabı və “Cadu” (2003) kimi nəsr əsəri nəşr edilmişdir. Ancaq onun XX əsrin sonu ilə XXI əsrin əvvəllərində daha çox dram əsərləri, hekayə, roman və kinossenarilər yazdığı məlumdur. Belə ki, Osman Əzim 90-cı illərdən başlayaraq, “Bəxtli uşaqlıq”, “Sənədli film üçün sujet” kimi radiopyeslər yazdıqdan sonra 1997-ci ildə “Bir qədəm yol”, “Gündüzsüz gecələr”, “Bazar” kimi nəsr əsərləri yazdı. Onun “Alpamışın qayıdışı” (1998), “Qəzəl” (2000), “Vaxt quşu” (2002), “Ötgən zaman həngamələri” (2003) kimi pyesləri və 2000-ci ildə yazdığı 2 seriyalı “Alpamış” filminin ssenarilərinin da müəllifi olduğunu bilirik.

İstər şeirləri, istər nəsr əsərləri, istərsə də pyesləri ilə şöhrət qazanan Osman Əzimin yaradıcılığı tənqidçilər və ədəbiyyatçılar tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2000-ci ildə Özbəkistanın Xalq şairi fəxri adına layiq görülmüş, dəfələrlə ilin ən yaxşı şeir kitabı nominasiyasını qazanmış və “Afərin” mükafatı, həmçinin daha öncə 1982-ci ildə V.Mayakovski adına Ümumittifaq mükafatına layiq görülmüşdür.

Tanınmış özbək şairi Osman Əzimin yaradıcılığı respublikanın sərhədlərini aşmış, şeirləri ingilis, fransız, alman, polyak, makedon, türk, rus, gürcü, eston, litva, tacik, qazax, qırğız və Azərbaycan dillərinə tərcümə edilmiş, şeirlərinə musiqi bəstələnmişdir.

Bütün Sovetlər İttifaqında olduğu kimi, 60-cı illər özbək ədəbiyyatında da yeni bir dövr idi. 60-cı illərin gətirdiyi nisbi sərbəstlik, müxtəlif sosial təbəqələrə müraciət yeni bir ədəbiyyatın yaranmasına səbəb oldu. XX əsrin 60-cı illərində ədəbiyyata yeni nəfəs gəldi. Böyük bir ədəbiyyatçılar nəslinin ədəbi prosesə gəlişi istər nəsrdə, istərsə də poeziyada qeyri-adi tərəqqiyə səbəb oldu. Ancaq bu çoxcəhətli inkişaf da kortəbii şəkildə olmamışdır. Belə ki, bütün Sovetlər İttifaqında olduğu kimi, özbək ədəbiyyatında da 60-70-ci illərdə ədəbi-estetik axar dəyişdi, etik-estetik problemlər, milli-mənəvi dəyərlər önə çıxdı.

Bu dövrdə özbək ədəbiyyatına Erkin Vahidov, Abdulla Aripov, Aman Mətcan, Rauf Pərfi, Məhəmməd Əli, Maruf Cəlil, Çolpan Erqaş, Camal Kamal kimi şairlər gəldi. Onlar ötən əsrin 30-cu illərində repressiya edilən Çolpan və Fitrətin yolunu davam etdirdilər. 60-cı illər şairlərinin müstəqil təfəkkürü yeni nəsil milli şairlərin yetişməsi üçün zəmin oldu, 70-80-ci illərdən sonra özbək ədəbiyyatına həqiqət və ədalət çeşməsindən su içən yeni bir dalğa gəldi: Şövkət Rəhman, Osman Əzim, Tahir Qəhhar, Osman Qoşqar, Əzim Süyün, Məhəmməd Yusuf, Xurşid Dövran, Rauf Sübhan, Əbdüzəli Qütbiddin, Əziz Səid, Yəhya Tağa və başqaları idi. Həqiqəti açıq demək, milləti müstəqillik üçün ayağa qalxmağa, savaşmağa çağırış bu dövrün şair və yazıçılarına məxsus başlıca özəllik idi. Belə ki, millət dərdini açıq deyən Osman Əzim “Saratanda” adlı şeirində deyirdi:

*Sonğeklere kadar işlemiş kış soğuklarına baharda isyan eder bir yaprak*
*Ama baharı karşılamağa bizde yok bir kuvvet [2, s.36].*

Osman Əzim poeziyası özünün milliliyi, sadəliyi və ən əsası da səmimiyyəti ilə seçilir. Şeirin bütün janrlarında və həm sərbəstdə, həm klassik əruz üslubunda, həm də hecada yazan şair eyni dərəcədə uğurlu olmuşdur. Onun şeirlərində hiss və həyəcan yüksək səviyyədədir. Şeirlərində döyüşkənliklə və hüzn-kədər, sevinc, ümumbəşəri olanla milli ünsürlər iç-içədir. Buna görə də Osman Əzimin hər şeir kitabı oxucular üçün yeni bir dünya olmuşdur, çünki şair şeirlərinin ruhuna daxili aləmini, insan sevgisini, həyəcanını qata bilmişdir. Osman Əzimin hər bir şeiri sanki yeni bir poetik tapıntıdır, yeni bir kəşfdir. Misal olaraq, onun “Kuz keçəsi” (“Payız gecəsi”) şeirinə diqqət etmək yetərlidir:

*Xəzanrez. Kuz yetdi yürəkkə –*
*Məramni buzdi.*

*Şamalda şavullab daraxtlar*
*Tunqa tapaldi...*

*Zəfəran yılduzlar kolmakdə –*
*Kokdə xəm kuzmi?*

*Neqadir yiğladi bir adam –*
*Konqil yaraldi [1, s.18].*

Osman Əzimin 1995-ci ildə çapdan çıxan "Saylanma" [3, s.21] ("Seçilmiş əsərləri") adlı şeirlər kitabı ədəbi mühitdə böyük əks-sədaya səbəb oldu. Kitabda gedən şeirlər Osman Əzimin XX əsrin son rübündəki özünəməxsus şairlərdən biri olduğunu göstərdi. Onun 2001-ci ildə işıq üzü görən "Kuz" ("Payız") şeirlər kitabı isə ədəbi tənqid tərəfində böyük rəğbətlə qarşılandı. Bu kitabdakı şeirlər özbək poeziyasının son illərdə nəşr olunan yaxşı nümunələri kimi oxucular tərəfindən qarşılandı. Osman Əzimin onlarca şeir kitablarına girən şeirləri, poemaları duyğularla, cazibədarlıqla dolu olub oxucuların qəlbini fəth etdi.

Osman Əzim ilk şeirlərindən başlayaraq, 1990-cı illərə qədər insanın daxili dünyasını riqqətə gətirən əsərlər yazdı. Bu əsərlərində dövr, ictimai həyat, insanın cəmiyyətdəki yeri, zamanın ağır şərtləri və s. kimi mövzular ön plana çıxdı. Onun "Sərbədarlar qoşugu" adlı şeiri bu cəhətdən spesifikdir. Bu şeirdə başını dar ağacına söykəyən bir qrup xalq qəhrəmanının həyatı və onların ən ağır zamanlarda, ölümlə üz-üzə qaldıqları anda keçirdikləri hiss və həyəcanı verilmişdir. Bu qəhrəmanların haqq yolunda, ədalət uğrunda mübarizələri, bu yoldan dönmədikləri adıçəkilən şeirdə bədii boyalarla təqdim edilmişdir:

*"Qayt", dedingiz, "qalb", dedik,*
*"Ayt", dedingiz, "haq", dedik.*
*Boshimiz dorda turib,*
*"Jon", demadik, "xalq", dedik,*
*"Jon", demadik, "xalq", dedik [3, s.73].*

Ancaq 80-ci illərin sonlarından başlayaraq, şeirlərindəki hadisələrin və zaman-məkan qavramının üstünlük təşkil etdiyi mövzuların yerini aşiqanə ruhlu şeirlər alır:

*Her gece*
*Xatıran kalbime döner*
*Fetheder*
*Bir anda*
*Can ve cismimi*

*Dışarı çıkarım*
*gece aydınlık...*
*O anda*
*Ağlarım*
*Söylerken ismini... [4]*

Aşiqanə şeirlər şairin ilk dövr yaradıcılığında da güclü idi. Ona görə də zamanla bu şeirlər yerini fəlsəfi dərinlikli poeziyaya buraxdı. Osman Əzim yaradıcılığının bu ikinci dövrü tamamilə yeni ruhlu şeirlərlə, insan varlığının müxtəlif tərəflərini ortaya qoydu. Bu, onun yaradıcılığının yeni bir dövrə qədəm qoyduğundan xəbər verirdi [5, s.997-1008].

Osman Əzimin yazdığı yüzlərcə şeir və poemaları sadəcə mövzu, janr, üslub, poetik formasına görə deyil, həm də coşğunluğu, romantikliyi və eyni zamanda mübarizliyi ilə əlahiddə əhəmiyyətə malikdir. Bununla bərabər, onun əsərlərində güclü dramatizm, estetiklik, faciəvilik kimi xüsusiyyətlər oxucunu həyəcana gətirir. Onun şeir və poemalarında vətən eşqi, ana yurda heyranlıq, vətən sevgisinin xalq təsəvvürü, gələcəkdə ola biləcək hadisələrdən doğan təşviş, gah müasir mövzularda, gah tarixi-müqayisəli tərzdə, gah folklor ənənələri ruhunda özünün dərin realist ifadəsini tapmışdır:

*Vatan sevgisinde birinci ada,*
*Birinci çatmaga pay yeter manqa.*
*Burda birincilik: Vatan yolunda*
*Birinci ölmegi öyretir manqa [6, s.94].*

Bunu onun bir az avtobioqrafik ruhlu şeiri də təsdiq edir:

*Oynaq-oynaq, ağır-ağır axmaqda ömrüm.*
*Gah göz yumub, gah üfüqdə batmaqda ömrüm*
*Var canını sədəqə eylə şeirə, qoşuğa*
*Siz yox edən sururları tapmaqda ömrüm [7, s.58].*

Osman Əzim bəzən çox sadə görünən həqiqətlərdə də dərin mətləblər axtarır, məsələləri fəlsəfiləşdirir. Aşağıdakı nümunədə onun 1 aprel gününə həsr etdiyi şeirində olduğu kimi:

*Men yorulub sanqa söykəndim, hakiket,*
*Saat zil çalmakta*
*Ayıtışım, gel.*
*Qorkma,*

*Keçti, bitti bir günlük dehşet*
*Bugün İkinci aprel,*
*Gerçek*
*İkinci aprel... [8, s.30]*

Onu da qeyd etmək lazımdır ki, müstəqillik dövrü Azərbaycan və özbək ədəbiyyatlarının milli mövzular baxımından ən zəngin dövrlərindən biridir. Bu dövrdə ədəbiyyatın, konkret olaraq poeziyanın əsas mövzusunu Sovetlər İttifaqını tərifləyən bayağı şeirlərin yerinə həqiqi həyat, cəmiyyət məsələləri, xalqın əsl duyğu və düşüncələri, milli məsələlər təşkil edir. Osman Əzim bir şeirində sərbəstlik, azadlıq fikirlərini poetik simvollarla belə anlatmışdır:

*Men şunday yaraldim:*
*Gullarim qalblarga solmas həyajon.*
*Mevamqa heç kimninq tuşmaqan mehri,*
*Barqim çumoliqa bolmas sayabon.*

*Sumbatim egri,*
*Alvida! Men endi maqsadqa yetdim*
*Baqdaşlar, sonq yolqa kuzatinq, qani...*
*Men atin bolqani uzlatqa ketdim,*
*Men ketdim, dostlarim, alov bolqani [9].*

80-90-cı illər şeiriyyətindəki yeniliklərə diqqəti yönəldən müəllif fikirlərini Abdulla Arif, Erkin Vahidov, Rauf Pərfi Öztürk, Həlimə Xudaverdiyeva, Osman Əzim, Şövkət Rəhman, Dilək Çörə, Yoldaş Eşbek, Məhəmməd Yusif, Xurşud Dövran və başqa istedadların ciddi poetik uğurları ilə əsaslandırır. Məqalənin özünəməxsus bir cəhəti ondan ibarətdir ki, onda müəllif qardaş ölkə şairlərinin Azərbaycan xalqının taleyinə münasibətini də yaddan çıxarmır [10, s.205].

Osman Əzimin yaradıcılığının başlanğıcı 70-80-ci illərə təsadüf etsə də, o bir şair kimi üçüncü dövrün, yəni müstəqillik dövrünün şairidir. Sovetlər dövrünün rus təsirindən qurtarmaq, milli haqları müdafiə etmək, 1960-1990-cı illərin şeirinə məxsus üstü qapalı ifadə tərzindən sözü sərbəst söyləməyə keçid; azadlıq, türklük, vətən sevgisi kimi mövzuları işləməklə, milli poeziyanın yeni mərhələsinin əsasını qoymaq Osman Qoşqar, Tahir Qəhhar, Həlimə Xudayberdiyeva, Yoldaş Eşbek, Osman Əzim kimi sənətkarlara qismət oldu. Bir sözlə, ədəbiyyat, konkret olaraq poeziya rəmzi-metaforik dildən sərbəst deyim tərzinə keçdi. Düzdür, Osman Əzim lirik bir şair kimi daha çox sevgi, təbiət təsviri, aşiqanə və sufiyanə şeirləri ilə seçilən bir şair olduğu üçün siyasi mövzulara o qədər də aşina olmadı. Onun şeirləri Həlimə Xudayberdiyeva, Yoldaş Eşbek, Şövkət Rəhman, Osman Qoşqar kimi türklük davası ilə yoğruldu. Ancaq yeni nəsil şairlərinin çoxu kimi, Osman Əzimin də şeirlərində milli düşüncələr hər zaman ön planda olmuşdur:

*Asmanqa ham atqum taş,*
*Gunahkar bolsa quyaş.*
*Gunahkar bolsa quyaş,*
*Qaytib tuşmaqaydir taş.*

*Asman ham bolib qanim,*
*Qaytib tuşsa, ne qamim!*
*Bir taş tuşsa tuşibdi,*
*Tağdek başimqa manim [9].*

**Nəticə / *Conclusion***

Müasir özbək ədəbiyyatının tanınmış şairi, dramaturqu, nasiri və ssenaristi Osman Əzim ömrünün ən məhsuldar dövrünü yaşayır. Onun yaradıcılığı çoxəsrlik özbək ədəbiyyatının zirvələrindən birini təşkil edir.

**Ədəbiyyat / *References***


1. Azim Usman. Kuz. Toşkent: Adabiyot va sanat, 2001.
2. Şerif Babahan Muhammed, İbrahimova Şahine. "20. Yüzyıl Özbək şiirinde bahar", Kardeş Kalemler yıl 7, sayı 75, 2013.
3. Çağdaş Türk Edebiyatları-II. Hazırlayan: Y.Akpınar, F.Ağca. Eskişehir: Anadolu Üniversitesi, 2013.
4. Kocaoğlu Timur. Çağdaş Özbek Şiiri (1996). http://www.tdk.gov.tr/images/1996_01_01_Kocaoglu.pdf.
5. Oba Emin. "Bağımsızlık Devri Özbek Edebiyatı", Turkish Studies 9/3, 2014.
6. Azim Usmon. Saylanma. Toşkent, "Şarq", 1995.
7. Azim Usmon. Uyqaniş azobi. Toşkent, "Şarq", 1991.
8. Azim Usmon. 2 aprel. Toşkent, 1988.
9. zarnews.uz › post › usmon-azim-bir-tosh-tusha-tus.
10. Almaz Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri. Bakı, "Qartal" , 2008.


## Осман Азимвеликий поэт современной узбекской поэзии

**Хатира Баширли**
Доктор филологических наук, Национальный Музей Азербайджанской Литературы им. Низами Гянджеви. Азербайджан.
E-mail: bashirli58@mail.ru

**Резюме.** Осман Азим является одним из величайших поэтов, писателей и сценаристов современной узбекской литературы. Этот великий поэт современной узбекской литературы занимается литературным творчеством почти 40 лет. Он работал во многих издательствах, редакциях, сотрудничал с национальными театрами. Осман Азим, основавший трон в сердце своих читателей лирическими стихами, написал много работ на тему любви и философии. Его работы были переведены на многие иностранные языки, включая азербайджанский, русский, английский, французский, турецкий, грузинский, немецкий, польский, эстонский, таджикский, казахский и другие.
**Ключевые слова:** современная узбекская литература, лирическая поэзия, философская поэзия, патриотизм, национальное возрождение